**“Azərbaycan Respublikasında dövlət dili haqqında” və “Reklam haqqında” Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə**

AZƏRBAYCAN RESPUBLİKASININ QANUNU

Azərbaycan Respublikasının Milli Məclisi Azərbaycan Respublikası Konstitusiyasının 94-cü maddəsinin I hissəsinin 1-ci və 26-cı bəndlərini rəhbər tutaraq **qərara alır:**

**Maddə 1.** “Azərbaycan Respublikasında dövlət dili haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2003, 1, maddə 2, 8, maddə 415; 2004, 8, maddə 598; 2007, 11, maddə 1053; 2011, 6, maddə 483; 2017, 1, maddə 5) 7.1-1-ci maddəsinin üçüncü cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

**Maddə 2.** “Reklam haqqında” Azərbaycan Respublikası Qanununun (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2015, 7, maddə 812; 2016, 11, maddə 1755, 12, maddə 1996; 2017, 3, maddə 334, 5, maddələr 675, 748, 6, maddə 1029, 7, maddə 1307, 12 (I kitab), maddə 2230; Azərbaycan Respublikasının 2018-ci il 28 dekabr tarixli 1412-VQD nömrəli Qanunu) 4.7-ci maddəsinin dördüncü cümləsində “müvafiq icra hakimiyyəti orqanı” sözləri “müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum)” sözləri ilə əvəz edilsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 19 fevral 2019-cu il
1518-VQD